Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 134 (1982) 22 avqust 2019-cu il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

ədalət 2019.- 22 avqust.- S.7.

FOLKLOR YOLUNDA FOLKLORLAŞAN ALİM

(Yusif Vəzir Çəmənzəminlinin Yaradıcılığı Barəsində bir neçə söz)

XX əsrin əvvələrində istər ədəbiyyatımızda, istərsə də folklorumuzda yeni bir nəfəs, yeni bir yol yarandı. Qeyd etdiyimiz yeni nəfəs Yusif Vəzir Çəmənzəminliyə məxsusdur. Onun yaradıcılığı çox zəngin və rəngarəngdir. Müəllifin əsərlərində mövcud olan bu rəngarənglik onun xalq yaradıcılığına yaxından bələd olmasından gəlir. Y.V.Çəmənzəminlinin əsərlərinin, məqalələrinin böyük bir hissəsi elə məhz xalq yaradıcılığı üzərində köklənmişdir.

Y.V.Çəmənzəminli xalq yaradıcılığını gözəl bildiyi üçün dövrünün ictimai-siyasi və digər problemlərini elə bir formada, elə bir məzmunda ifadə edir ki, məsələnin məğzi tam aydın olur. Xalq yaradıcılığını özünə böyük bir mənəvi dayaq sayaraq, onu geniş, əhatəli və dəqiq bir şəkildə araşdırmağı özünə borc bilir. Hətta Y.V.Çəmənzəminlinin qənaətincə, dilçilik sahəsini öyrənmək və tədqiq etmək istəyən şəxs mütləqdir ki, xalq yaradıcılığına müraciət etmiş olsun. Y.V.Çəmənzəminli "Dil məsələləri" adlı məqaləsində dilçiliklə bağlı fikirlərini bu cür izah edir: "Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplanılsın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin". Dil məsələsindən söhbət açmışkən onu da qeyd etmək lazımdır ki, Y.V.Çəmənzəminlinin əsərlərində xüsusilə də "Qızlar bulağı" romanında qədim mənşəli sözlər çox geniş şəkildə yer almışdır. Bu yazıda Yusif Vəzir Çəmənzəminlinin əsərlərində toxunduğu bəzi məqamlardan söz açacağıq. Yusif Vəzirovun yaradıcılığı zəngin, rəngarəng, xalq danışıq üslubunda olduğu kimi, həmçinin əsərləri məzmun baxımından çox mürəkkəbdir. Ona görə ki, Y.V.Çəmənzəminlinin əsərlərində bir çox dinlər və dini inanclar haqqında bilgilər yer alır. Ədibin əsərlərini düzgün tədqiq, təhlil etmək üçün mütləqdir ki, tədqiqatçıların qədim dinlərin mənşəyi haqqında təsəvvürü olsun. Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığında əsas yer tutan məsələlərdən biri Zərdüştlük dinidir. Ədibin zərdüştlüklə bağlı bir çox məqalələri ("Azərbaycanda Zərdüşti adətləri", "Azərbaycan nağıllarının əhvali-ruhiyyəsi", "Nağıllarımız barəsində bir-iki söz" və s.) və bir əsəri ("Qızlar bulağı") vardır. Ədibin dünyagörüşündə zərdüşt adət-ənənəsi, fəlsəfəsi xüsusi bir mövqeyə sahibdir. Müəllif xüsusi olaraq Zərdüşt fəlsəfəsindən çox sıxsıx istifadə edərək, "əmək" tərbiyəsini qabarıq bir şəkildə vurğulayır. Müəllif "Qızlar bulağı" romanında bütöv bir süjet Zərdüştü adətlərinə və ən əsası isə əmək tərbiyəsi məsələsinə geniş bir yer ayırmışdır. "Qızlar bulağı" romanında hadisələr dərs zamanı şagirdlərin kərpic üzərində Zərdüştü adətləri və tarixi barədə yazılar oxumaqla başlayır. Əsərdə əks olunan məsələlərdən biri də budur ki, gənclər zəhmətlə, əmək sərf etməklə yaradan tərəfindən bəxş olunan ömürlərini yaşamalıdırlar. "Avesta" qanunlarına görə, gələcək zərdüştü özünün ilk ruhani təhsilini əməkdən, zəhmətlə tanışlıqdan başlamalı idi. Əsərdə xüsusi olaraq gənclərin gözəl tərbiyə alması məsələsi də vurğulanır. Gənclərə uşaq yaşlarında əməklə, zəhmətlə bağlı çoxlu tövsiyələr verilir.

Romanda diqqət çəkən məqamlardan biri də qəbilə quruluşları arasında olan demokratik sistemin mövcud olmasıdır. Təbii ki, bu hal Zərdüşt adət və qayda-qanunlarından bəhrələnir. "Qızlar bulağı" romanında xüsusi olaraq iki qəbilə arasında qayğı vardır.

Bunlardan biri "Xoruz", digəri isə "Qoç" qəbiləsidir. "Xoruz" qəbiləsinin oğlanları bahar fəslində "Qoç" qəbiləsinə gedərkən onları xüsusi ayinlər və törənlər vasitəsi ilə qarşılayırlar. Firuzə Məmmədli çox doğru olaraq yazır ki, "Həddi-buluq dövründə olan bu gənclərin mənəviyyatındakı işguzarlıq, ağsaqqalara məxsus təmkin, idarə işlərində reformativ dəyişikliklər onların nə vaxtsa aldığı düzgün tərbiyədən xəbər verir". Gənclərin qadınlara qarşı digər bir diqqətə layiq hərəkəti bahar da "Qoç" qəbiləsinə gedən gənclər iki sosuz qadını ziyarət etmələri idi. Əsərdə yazılır ki, "Biz adətə riyaət etməli idik. Sosuz qadınlara sovqat aparırdılar. Biz də dürlü-dürlü kətələr, şərablar, darçın, mixək və dəstə-dəstə çiçək götürüb getdik". Gənclər iki sosuz qadının məişət işlərinə də köməklik göstərirdilər. Bu da onu göstərir ki, gənclər cəmiyyətdə heç bir ayrı seçkiliyə fikir vermirlər. "Qızlar bulağı" romanında həyata və yaşama dair çox sayda fəlsəfi fikirlər yer alır. Əsərdə yazılır ki "Həyatımın qırx ilini fəlsəfə ilə uğraşdım, idrakın o tayına keçməyə qalxmışdım. Qırx gözəl ili qaib etməkdən başqa bir şey əldə edə bilmədim. Yalnız bir həqiqəti öyrəndim-azad yaşamaq, tox yaşamaq. İştə, o həqiqət! Bu iki amili də təmin edən əməkdir. Çalışmalı, yaşamalı, yaşatmalı". Burada əsas məsələ "tox yaşamaq, azad yaşamaq"dır. İnsan azad və tox yaşamaq üçün çalışmalıdır. Zəhməti ilə çalışan hər bir kəs azad və tox yaşayır. Y.V.Çəmənzəminli elmi və publisitik məqalələrinin əksəriyyətində "xurafat" və " irtica" lığa qarşı çıxır. İslam dininin adı altında insanları aldadan, insanları göz görə-görə yalnış məlumatlandıran ikiüzlü, fırıldaqçı özlərini din xadimləri adlandıran şəxslər Y.V.Çəmənzəminlinin sərt tənqidinə tuş gəlir. Bu məsələyə aydınlıq gətirməzdən əvvəl XIX-XX əsr Azərbaycan mühitinə qısa bir nəzər yetirək. XIX sonu XX əvvəllərində və daha sonralar bir çox ziyalılarımız yazılarında dövrdən şikayətləndiyini görürük. Əbdürrəhim bəy Haqverdiyev "Xortdanın cəhənnəm məktubları", Cəlil Məhəmmədquluzadənin "Ölülər" və b. ziyalılarımız əsərlərində yaşadıqları zamanənin insanları xurafata çox meyil etdikləri üçün onlar şikayətlərini ürək ağrısı ilə bildirirdilər. Bu cür narazılıqlar Y.V.Çəmənzəminlinin yazılarında da, xatirələrində də geniş şəkildə yer alır. "Həyatımın 20 ili", "Bir gəncin dəftəri" və digər yazılarında bu məsləyə çox ciddi şəkildə toxunmuşdur. Hətta Y.V.Çəmənzəminli bu məsələ ilə bağlı "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Şuşa sümüyə qədər mövhumatçı" adlı məqaləsində bu məsələyə toxunur. Hətta bu məqaləyə görə Şuşa sakinləri Y.V.Çəmənzəminlini qınaq obyektinə çevirirlər. "Ana və Analıq" yazısında qadınların hüquqlarından bəhs edir. Çünki həmin dövr qadına münasibət çox fərqli və ürək ağrıdıcı vəziyyətdə idi. Y.V.Çəmənzəminli "Qulluq və əsrlik" adlı məqaləsində vurğulayır ki, müsəlmanlar xurafata baş qoşaraq öz sərvətlərindən, torpaqlarından düzgün istifadə edə bilmirlər. Öz torpaqlarında əcnəbilər gəlib ticarətlə məşğul olub varlanırlar. Y.V.Çəmənzəminli ürək ağrısı ilə vurğulayır ki, hətta "ayağı" cındır çarıqlı ermənilər gəlib burada varlanırlar. Həmin məqalədə qeyd edir ki, biz müsəlmanlar qulluğa öyrəşmişik. "Gəncə, İrəvan, Qarabağ bəyləri böyük mülk sahibi ola-ola onları dolandıra bilmirlər. Ağalıq edə bilmirlər. Ancaq cəmi fikirləri bu olur ki, görsünlər pristavın dəftərxanasında bunlara bir yer olarmı, orada qulluq eləsinlər".

Y.V.Çəmənzəminli "Qulluq və əsrlik" məqaləsində ədəbiyyat məsələsinə də toxunur. Xüsusi olaraq qeyd edir ki, insanlar yeniliyə, müasirliyə doğru getmək istəmirlər. Klassiklərin yaradıcılığından bir-iki söz götürməklə onun ətrafında dolaşırlar. Ancaq yeni bir şey yarada bilmirlər. Y.V.Çəmənzəminli insanların başqa millətlərə qul olmasına heç zaman razılaşa bilməmişdir. İnsanların özlərini qul etdiyi kimi, fikirlərini də qul etmək çox böyük bir faciə ilə yekunlaşar deyə qeyd edirdi. O, yazır ki "Allah-təala insanı yaradanda qul yaratmayıb, onu məxluqatın əşrəfi bilib, ona ağıl kimi böyük bir qüvvə əta edib". Y.V.Çəmənzəminlinin məqalələrinin böyük bir hissəsini insanların öz kökünə, milliyətinə, dininə, dilinə bağlı olması məsələsi tutur. Yusif Vəzirov xüsusi olaraq türk millətinə ünvanladığı çağırış məzmunlu yazıları diqqəti çəkir. "Azərbaycan muxtariyyəti Ayılın, toplaşın!" adlı məqaləsində deyilir ki "Ey nəcib türk milləti, ayıl! Bir rəşadətli balalarını yad et! Şan və şövkət ilə ömür sürməlidir. Köhnə rus məmurlarının çəkməsi altında taptalandığın kifayət edər". Bu dövrdə ruslar bizlərə qarşı çoxlu işgəncələr etmişlər. Bunları görən Y.V.Çəmənzəminli türk dünyasına üz tutaraq məsələni agah etmişdir. Y.V.Çəmənzəminli qurtuluşu ən əsas mədəniyyətdə və birləşməkdə görürdü. Azərbaycan torpaqlarına gələn gürcülərin, rusların, ermənilərin və digər millətlərin qaragürhurçu fikirlərini, əməllərini görüb ürək ağrısı ilə yazılılarında qeyd edir. Bu məsələ onun xatirələrində geniş bir şəkildə yer ayrılmışdır.

Nəticə olaraq onu da qeyd etmək lazımdır ki, Y.V.Çəmənzəminlinin yaradıcılığı zamanından asılı olmayaraq hər an aktual və dəyərlidir. Ədibin əsərləri tarixi və mifoloji şüur baxımından çox zəngindir. Y.V.Çəmənzəminlinin yaradıcılığı bu günə qədər çoxlu araşdırılsa da (Bəhlul Abdulla, Tofiq Hüseynoğlu, Kamran Məmmədov, Firuzə Məmmədli, Şəlalə Qarabağlı və b.) yenə də tədqiqata cəlb olunası məqamları çoxdur. Ədibin təkcə "Qızlar bulağı" romanında qədim dini inanclar, tarixlik baxımından o qədər zəngindir ki, əsərin hər bir cümləsi müəyyən bir tarixdən xəbər verir. Necə deyərlər: "Yusif Vəzir Çəmənzəminlinin hər cümləsi bir tarixdir".

İlkin ELSEVƏR,
Folklor üzrə tədqiqatçı

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR